# "Zabitlər parkı" paytaxt sakinlərinin sevimli istirahət yerinə çevrilib

**Ölkəmizdə həyata keçirilən genişmiqyaslı abadlıq və quruculuq işləri şəhər və kəndlərimizin simasını gözəlləşdirməklə yanaşı, həm də xalqımızın sosial rifahının yüksəlməsinə, rahatlığının təmin olunmasına yönəlib. Vaxtilə salınmış, sonralar zamanın təsirinə məruz qalaraq köhnəlmiş və hətta yararsız vəziyyətə düşmüş bir çox istirahət və əyləncə məkanları son illər möhtərəm Prezident İlham Əliyevin göstərişi ilə yenidən qurulub, abadlaşdırılıb və müasirləşdirilib. Belə məkanlardan biri də paytaxtın mərkəzində, S.Vurğun küçəsində yerləşən "Zabitlər parkı"dır.**



Bu yaşıl məkan Böyük Vətən Müharibəsi illərində salınıb. Əvvəllər rəsmi adı bir neçə dəfə dəyişdirilsə də, şəhər sakinləri arasında daim "Zabitlər parkı" kimi tanınıb. Sərv, qovaq, Eldar şamı, yapon saforası, zeytun və digər çoxillik ağacların olduğu 4 hektarlıq parkda yenidənqurma işləri 2009-cu ildə başlayıb və iki il ərzində buranın siması tamamilə dəyişdirilərək yeni və daha yaraşıqlı görkəm alıb.

İndi parkda yaşına və zövqünə uyğun istirahət və əyləncə növü tapan hər kəs burada yaradılan şəraitdən məmnundur. İstirahət ocağına yeni həyatı son on ildə şəhərimizin ən müxtəlif guşələrində abadlıq və quruculuq işləri həyata keçirən, unikal memarlıq nümunələri yaradan "Azimport" MMC-nin inşaatçıları bəxş ediblər. Onlar burada hər daşın, hər bordürün üzərində xüsusi zövqlə işləyib, parkın döşəmə və divarlarına xaricdən gətirilmiş daşları peşəkarlıq və incəliklə düzüblər.

Aparılan yenidənqurma işləri zamanı münbit torpaq qatı gətirilərək parkın bitki örtüyü daha da zənginləşdirilib. Çoxillik ağaclarla yanaşı, ərazidə İtaliyadan gətirilmiş tut, heyva, albalı ağacları, habelə bənövşə, azaliya, pelarqoniya kimi gül-çiçək növləri əkilib.

"Zabitlər parkı" gələnləri daş fontanla salamlayır. Parkın girişində təmir zamanı quraşdırılmış fontanda əvvəllər olduğu kimi, şir heykəli saxlanılıb. Yeri gəlmişkən, istirahət məkanında çoxlu tunc heykəl və fiqurlar var: armudu stəkanları üst-üstə yığaraq müştərilərə xidmət göstərən çayçı, növbəti gediş üzərində düşünən şahmatçı, gül təklif edən qız, yorğun fotoqraf, "klas-klas" oynayan məktəbli, ələ tutan uşaqlar...

Mərkəzdəki külafirəngi də uzun illərin yadigarıdır. Yaxşı ki, təmirçilər onu qoruyub saxlayıb və ətrafında səliqə-sahman yaradıblar. Beton üzərində qoyulan saat da parka özünəməxsus gözəllik bəxş edir.

"Zabitlər parkı"nın digər istirahət mərkəzlərindən ən başlıca fərqi isə burada 700 kvadratmetr sahəni əhatə edən buz meydançanın olmasıdır. Bu nadir əyləncə məkanı valideynləri öz övladları, nəvələri ilə həmin meydançaya üz tutmağa həvəsləndirir. Uşaqlar buz meydançada sürüşüb əylənir, ata-analar, baba-nənələr isə sərinlənirlər.

Şəhərin mərkəzi hissəsində, hündür göydələnlərin arasında yerləşən parka gediş-gəliş həmişə çox olur. Parkın bir tərəfində Əjdərbəy məscidi, digərində isə müasir tipli hündür binalar ucalır, bir növ burada tarixi Bakı ilə müasir Bakı bir-birinə qovuşur.



Parkın mərkəzində 60-70 yaşlı palıd ağacı var. İstirahətə gələnlərin çoxu əzəmətli və boy-buxunlu ağacın ətrafına toplaşır, görüşənlərin çoxu onun yanında görüşür. Şümşad boylu palıd yaşıllıqlar içərisinə qərq olan parkın keçdiyi bütün tarixi yolun şahididir... Bir vaxtlar kimsəsiz və heç kimin üz tutmadığı park indi yaşından asılı olmayaraq bütün paytaxt sakinlərinin və qonaqların sevimli istirahət yeridir.

**M.RƏCƏBOVA,**
**"Respublika".**